# Mürvət Qədimoğlu HƏKƏRİ - 70



Hörmətli, Mürvət müəllim!

Sizi - istedadlı şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin səksəninci illərində başlamısınız. İlk qələm təcrübəniz mətbuada işıq üzü görüb. 1991-ci ildə Xalq şairi Zəlimxan Yaqubun uğurlu yol təqdimatı ilə şeirləriniz geniş ədəbi ictimaiyyətə təqdim edilmişdir. 1994-cü ildə çapdan çıxan "İkiyə bölünən ürək" adlı şeirlər kitabınız maraqla qarşılanıb. Sonralar nəşr olunan "Mən - dünyanın dərd daşıyanı", "Zirvəyə gedən yol", "Yuxuma girən yerlər", "Yaman dünya, yalan dünya", "Dünya həmin dünyadı", "Mən şəhid olmuşam ki...", "Həyat həqiqətləri", "Bağışlama məni, Vətən", "Qayıt yurda, qayıt" kimi kitablarınız sizə geniş oxucu auditoriyası qazandırmışdır. Ədəbi yaradıcılığınız "Araz", "Əhməd xan", "Vətən övladı", "Qızıl qələm" mükafatları ilə dəyərləndirilib.

Siz 1982-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmisiniz. Bir çox müəssisədə, elmi-tədqiqat institutunda, "Fəryad", "Yurddaş", "Xalq nəzarəti" qəzetlərində işləmisiniz. Hazırda Suraxanı rayon İcra Hakimiyyətinin layihə-smeta bürosunda çalışırsınız.

Hörmətli Mürvət müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**